# MEŞƏ TOXUMÇULUĞU MEŞƏBƏRPA İŞİNİN ƏSASI KİMİ

**Əlisahib Hüseynli, Gülnarə Əliyeva**

*AR Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında*
*Meşələrin İnkişafı Xidməti, Bakı*
*alisahib1013@gmail.com*

Son 50-60 ildə Yer kürəsi əhalisinin artım dinamikasında kəskin sıçrayışlar baş vermişdir. Belə ki, BMT-nin hesabatlarına əsasən, XX əsrin 50-60-cı illərində dünya əhalisinin artım tempi tarixi maksimuma qalxmış, təxminən 30 il ərzində əhalinin sayı 3 milyarddan 6 milyard nəfərə çatmışdır. XX əsrin əvvəllərində dünyada şəhər əhalisinin sayı 5-6% olduğu halda, sürətli urbanizasiya nəticəsində hazırda bu rəqəm 40%-i ötüb keçmişdir.

Həmçinin, müxtəlif sənaye sahələrinin (neft-kimya, metallurgiya, qida, tikinti, hərbi və s.) sürətli inkişafı nəticəsində ətraf mühitə atılan tullantıların miqdarının artması və təbii ekosistemlərin sahəsinin nəzərəçarpan dərəcədə azalması müşahidə olunur.

Sürətli əhali artımı, ətraf mühit çirklənməsinin miqyasının genişlənməsi və təbii ekosistemlərin (biogeosenozların) durmadan azalması, nəticə olaraq Yer kürəsində lokal, regional və qlobal miqyasda kataklizmlərə (kəskin iqlim dəyişmələri, ərazi və mövsümə uyğun olmayan sel, daşqın, yanğın, quraqlıq və s.) gətirib çıxarır. Belə anomaliyaların qarşısını almaq və təsirlərini azaltmaq üçün ətraf mühitə atılan tullantıların idarə edilməsi ilə yanaşı, miqdarını azaltmaq, təbii ekosistemləri qorumaq, davamlı, dayanıqlı və səmərəli istifadə etmək, yaşıllıq sahələrini artırmaq bu problemdən ən optimal çıxış yolu hesab olunur.

Meşə ekostemi biosferin ən əsas və irihəcmli komponentlərindəndir. İstər böyük və kiçik bioloji dövranda, istərsə də qida zəncirində meşələrin xüsusi əhəmiyyəti vardır. Belə qiymətli ekosistemin qorunması, sahəsinin və məhsuldarlığının artrılması, həmçinin dayanıqlı istifadəsi hazırda bütün dünya ölkələrinin qarşısında duran ən aktual məsələlərdən biridir.

Digər azmeşəli ölkələr kimi Azərbaycanda da bu sahədə müəyyən işlər həyata keçirilir. Mövcud meşələrin mühafizəsi gücləndirilir, təbii bərpaya kömək və əkin işləri genişləndirilir. Digər azmeşəli ölkələrdən fərqli olaraq, Azərbaycan ərazisinin 20%-ə qədərinin 30 ilədək işğal altında olması, 1 milyonadək vətəndaşın qaçqın düşməsi və XX əsrin 90-cı illərində təbii qaz problemi ölkə meşələrinə ciddi şəkildə mənfi təsir etmişdir.

Ölkəmizin meşə təsərrüfatının qarşısında qoyulan əsas məsələlərdən biri və ən başlıcası respublika meşələrinin məhsuldarlığını yüksəltmək, cins tərkibini yaxşılaşdırmaq, ərazini yerli şəraitə uyğun ağac və kol cinsləri hesabna artırmaqdan ibarətdir. Bunun da əsasını mövcud meşələrin bərpası və yeni meşələrin salınması işləri təşkil edir. Məhsuldar meşələrin salınması və yetişdirilməsində əsas diqqət yüksək genetik xüsusiyyətli və seleksiya əhəmiyyətli ağaclardan toxum tədarükü və yüksək keyfiyyətli əkin materialı yetişdirilməsinə yönəldilməlidir.

Meşə toxumçuluğu işi bir neçə məsələləri – meşə toxumçuluğunun rayonlaşdırılması, toxumçuluq sahələrinin ayrılması, formalaşdırılması, onlara qulluq işləri, müsbət ağacların seçilməsi, fenoloji müşahidələr və gözlənilən toxum məhsulunun uçotununun aparılması, toxum tədarükü və emalı, səpin keyfiyyətinin yoxlanılması, saxlanılma və nəql işləri, toxum xəstəlik və zərərvericilərinə qarşı profilaktiki tədbirlərin aparılması və s. əhatə edir.